Scientific News of Sports Academy
Sport Science Journal
vol. 6, № 3, 2024, pp. 64-68.

# İDMANÇI TƏLƏBƏLƏR ÜÇÜN İNGİLİS DİLİNİN ÖYRƏNİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

**S.A. Quliyeva**

*Azərbaycan İdman Akademiyası*
samaya.guliyeva@sport.edu.az, orcid.org/0000-0002-2942-0944

**Nəşr tarixi**
Qəbul edilib: 3 iyul 2024
Dərc olunub: 26 sentyabr 2024
© 2021 ADBTİA Bütün hüquqlar qorunur

**Annotasiya.** Məqalə idmançı tələbələr üçün İngilis dilinin öyrənilməsinin zəruriliyini, tətbiq edilməsinin əhəmiyyətini və kommunikativ metodlardan, informasiya-kommunikasiya texnologiyalarından və s. istifadə etməklə İngilis dilinin tədrisi metodikasının optimallaşdırılmasının xüsusiyyətlərinə həsr edilmişdir. Məqalə həmçinin beynəlxalq idman peşəkar fəaliyyəti şəraitində sərbəst ünsiyyət üçün zəruri olan parametrləri nəzərə alaraq gələcək idmançılara peşəkar və sosial sahələrdə xarici dildən istifadə etməyə imkan verəcək kommunikativ və mədəniyyətlərarası səriştənin formalaşmasının zəruriliyini real nümunələrlə təqdim edir.

**Açar sözlər:** *kommunikasiya bacarıqları, mədəniyyətlərarası kommunikativ səriştə, idman mütəxəssisləri, interaktiv tapşırıqlar, peşəkar yönümlü tədris.*

Məlumdur ki, idmanla bağlı ixtisaslar, fəaliyyət sahələri müasir cəmiyyətdə aktualdır və xarici dil bilmək idmançılar üçün peşəkar karyeralarında böyük üstünlük hesab edilir. İdman sahəsində təhsil alan gələcək mütəxəssislər üçün İngilis dilinin öyrənilməsi həm təhsil zamanı, həm də peşəkar karyeralarında mühüm əhəmiyyət kəsb edərək müxtəlif növ tədbirlər, yarışlar və ya peşəkar təlimlərdə ünsiyyət qurmağı asanlaşdıracaq. Bu da aydın şəkildə idman mütəxəssislərinin nitq hazırlığı səviyyəsinə tələbləri artırır.

Qeyd etməliyik ki, ümumilikdə idmançı tələbələrin İngilis dilinin öyrənilməsi və tətbiqi ilə bağlı üzləşdikləri çətinliklərin tam aradan qaldırılması müasir metodikada mühüm əhəmiyyət kəsb edir.

İngilis dilini öyrənmək prosesi yalnız lüğət, praqmatika, fonologiya, oxu-tərcümə kimi dil bacarıqlarının əldə edilməsinə yönəlməməlidir. Xarici dilin öyrənilməsi pedaqoqların özləri tərəfindən mərhələli proses, planlaşdırma və modelləşdirmə yolu ilə öyrədilən çox səviyyəli modeli təmsil edir. Xüsusilə də kommunikativ səriştənin təkmilləşdirilməsi daha çox diqqət tələb edir. Dili bilmək bu dildə səlis ünsiyyət qurmaq bacarıqları ilə ölçüldüyündən bu məsələni diqqət mərkəzində saxlamaq zəruridir. İdmançı tələbələrin dil öyrənmə prosesinin oxu-yazma, idmanla əlaqəli lüğətin öyrənilməsi ilə məhdudlaşdırılması qeyd etdiyimiz səriştənin təkmilləşdirilməsini ləngidir [7].

Lüğət bacarıqları xarakterik idmanla əlaqəli sözlər real həyat situasiyalarına əsaslanaraq təqdim edildikdə daha praktik əhəmiyyət daşıyır. Lakin bütün dərsliklər bu tələblərə uyğun tərtib edilmədiyində müəllimlər müəyyən metodiki məsələləri nəzərə almalı olurlar. Qeyd edilməlidir ki, daha çox ənənəvi metodların tələblərinə əsaslanan, yalnız dilin 4 səriştəsinin öyrənilməsinə yönəlmiş və tələbələrin peşəkar idman ünsiyyəti bacarıqlarına az fokuslanmış vəsaitlər ünsiyyət bacarıqlarının təkmilləşməsinə nəzərdə tutulmuş dəstəyi etmir. Bu zaman müəllimlər peşəkar yönümlü əlavə materiallardan istifadə edərək peşəkar yönümlü ünsiyyət üçün müstəqil dil situasiyalarını inkişaf etdirirlər. Təəsüflə qeyd etməliyik ki, müxtəlif peşəkar fəaliyyət sahələrində aparıcı mütəxəssislər tərəfindən hazırlanmış kifayət qədər autentik materiallar olsa da, bu cür dərsliklər idman sahəsində ya praktiki əhəmiyyət kəsb etmir, ya ümumiyyətlə azlıq təşkil edir ya da idman sahəsində effektiv ola biləcək yaradıcı dil çalışmalarını effektiv təqdim etmir [5].

Tədqiqatlar göstərir ki, tələbələr tədris ili yeni başlayanda İngilis dilini daha böyük maraqla öyrənirlər. Lakin sonralar bu maraq azalır. Bu onunla əsaslanır ki, tələbələr xarici dili onların real həyatdakı maraq və istəklərindən ayrı olduğunu düşünür və öz peşə fəaliyyətində necə istifadə edəcəklərini tam müəyyənləşdirə bilmirlər. Tələbələr yanlış olaraq özlərini inandırırlar ki, gələcəkdə yarışlarda nailiyyət qazanmaqda xarici dil onlara lazım olmayacaq. Burada metodist müəllimin rolu tələbələri motivasiya etmək və onların idman karyerasında yüksəlişi üçün xarici dilin əhəmiyyətini izah etməkdir. Ümumiyyətlə tələbə İngilis dilinin zəruriliyini və nə üçün öyrəndiyini bilmirsə öyrənmə motivasiyası da formalaşmayacaq [1].

Dilçi N.Nastas iddia edir ki, idman sahəsində öyrənmə prosesi təkcə terminologiyanı öyrənməkdən ibarət deyil, çünki biz təkcə sözlərin mənasını deyil, həm də digər birləşmələr və sözlərlə qarşılıqlı əlaqəni bilməli, həmçinin sözləri başa düşmək bacarığını inkişaf etdirməliyik. Onun fikrincə, ixtisasyönümlü tədris edilən xarici dildə təkcə müəyyən edilmiş terminləri deyil, morfo-sintaktik konstruksiyaları da bilmək vacibdir [3].

Xarici dilin öyrənilməsi prosesində tələbə idmançılar İngilis dilində rəsmi və qeyri-rəsmi ünsiyyətin formalarının uyğun situasiyalarda peşəkar şəkildə icra etməyi öyrənirlər. Tələbə idmançıların İngilis dilində peşəkar yönümlü hazırlığının əsas amilləri aşağıdakılardır:

1) beynəlxalq idman peşəkar fəaliyyəti şəraitində sərbəst ünsiyyətin həyata keçirilməsi üçün zəruri parametrləri nəzərə alaraq gələcək mütəxəssis-idmançılara peşəkar və sosial sahədə xarici dildən istifadə etməyə imkan verən kommunikativ və mədəniyyətlərarası səriştənin inkişaf etdirilməsi zərurəti. Bura daxildir: beynəlxalq yarışlar, məsləhətləşmələr üçün səfərlər, beynəlxalq idman tədbirlərinin hakimliyində iştirak, məşqçilik işlərinin yerinə yetirilməsi və s;
2) dinamik mobil kontekstli idman yönümlü mövzuların prioritetliyi;
3) İngilis dilini mənimsəmək üçün motivasiya yaratmaq, peşəkar karyera yüksəlişi üçün xarici dil öyrənmək ehtiyacı barədə məlumatlılığı stimullaşdırmaq;
4) peşəkar lüğət ehtiyatının inkişafı və İngilis dilində peşəkar biliklərə sahib olmaq bacarıqlarının formalaşdırılması;
5) tələbə idmançıların peşə maraqlarını nəzərə alaraq, müasir cəmiyyətdə idmanın yeri, idmanda nailiyyətlərin optimallaşdırılmasında İngilis dilinin əhəmiyyəti, idman və kütləvi informasiya vasitələrinin əlaqəsi, idman strukturları və təşkilatları sahəsində mütəxəssislərin işinin xüsusiyyətləri kimi məsələlərin nəzərdən keçirilməsi [7, 9].

Bədən tərbiyəsi və idmanda tələbələrin xarici dili öyrənməsi iki istiqaməti əhatə edir: ümumi istifadə olunan dil lüğətini mənimsəmək və xüsusi yüksək ixtisaslaşdırılmış lüğətdən istifadə etmək. Məlumdur ki, idmançılar dünyanın müxtəlif ölkələrinə səfər edirlər və buna görə də, müəyyən gündəlik məsələləri həll etmək, şəhərdə gəzmək, alış-veriş etmək və s. üçün ümumi İngilis dili lüğətinə ehtiyac olacaq. Bunun üçün yüksək ixtisaslaşmış idman lüğətinə ehtiyac olmayacaq. İkinci istiqamət ixtisaslaşdırılmış idman lüğətini əhatə edir. Bu lüğətin tədris olunma vaxtı, tələbə hazırlığının konkret bir istiqamətindən asılı olaraq, xarici dil dərsləri aşağıdakı kommunikativ sahələrdə təcrübələri əhatə edə bilər [8]:

- idman növlərinin adları, idman avadanlıqları, inventor;
- idmana aid hərəkət bildirən sözlər (to bowl – top atmaq, to draw - hesabı bərabərləşdirmək);
- frazeoloji feillər (to knock out - nokaut etmək, yığmaq, bulk up- əzələləri artırmaq);
- idmanla əlaqəli şəxslər (linesman- yan hakim, fan - azarkeş – tərəfdar);
- ölkələrin, şəhərlərin, komandaların adları;
- frazeoloji vahidlər, jarqonlar, idman klişeləri;
- idman və idmançılar haqqında məlumatlar;
- İngilis dilinin növləri arasındakı fərq, məsələn, Britaniya və Amerikan İngilis dillərində "futbol" sözünün mənası;
- "canlı" idman dilini öyrənmək üçün tematik forumlardan, bloglardan, ixtisaslaşmış internet resurslarından və çap nəşrlərindən

istifadə etmək məsləhətdir.

- İdman şərhlərinin audio yazılarından istifadə etmək faydalıdır çünki bu fərdi dil xüsusiyyətləri ilə xarakterizə olunur.
- Xüsusi ifadələr və hətta nitq tərzi də diqqət mərkəzində saxlanılmalıdır. [2]

Qeyd etməliyik ki, peşəkar lüğəti tez mənimsəmək üçün onun əsasında müxtəlif qrammatik konstruksiyaları izah etmək tövsiyə olunur. Beləliklə, məsələn, indiki sadə zamanı öyrənmək üçün tələbə müəyyən idman, oyun, hərəkət və ya idman alətlərini təsvir edir: "*Wrestlers meet on a raised platform, on an 8 square meter mat. Their costume consists of leotard – a kind of trunks with shoulder straps and a pair of soft boots."* Keçmiş sadə zamanı praktika edərkən tələbələr bir oyunu, idman fəaliyyətini, xüsusiyyətlərini və ya tarixi, yaradıcısı haqqında müzakirələr edirlər: *"According to one of the legends, the evolution of karate began over a thousand years ago, when Bodhidharma arrived in Shaolin (small forest temple), China from India. He introduced a systematized set of exercises marked the beginning of the Shaolin martial arts."* İdman sahəsindən gətirilən nümunələr tələbələrdə daha çox diqqət oyadır.

İdmançı tələbələrə xarici dilin öyrədilməsi ilə bağlı problemlərdən biri də onların məşğələlərinin, görüşlərin, yarışların həddən artıq çox olması və kurrikulumda nəzərdə tutulan bütün dərslərdə iştirakının mümkün-süzlüyü problemidir. Bununla belə, buraxılmış dərslər tələbələrin geri qalmasına və dili öyrənməyə davam etmək istəməməsinə səbəb olur. Bu problemin həlli, informasiya-kommunikasiya texnologiyalarının tədris prosesində fəal tətbiqidir. Bu vasitələrin uyğun şəkildə tətbiq edilməsi aşağıdakı üstünlükləri təmin edir:

- tələbələrin müstəqil işini təşkil etmək;
- hər bir tələbə üçün üçün materialın qavranılmasının optimal sürətini təmin etmək;
- tələbənin auditoriyadan kənar da materialın öyrənilməsi imkanını təmin etmək;
- əldə edilmiş nailiyyətlərə, inkişaf prosesinə nəzarət etmək imkanlarını təmin edir;
- İngilis dilinin tədrisi zamanı tələbələrin nitq və kommunikativ səriştələrinin formalaşmasında dərsin monotonluğunu aradan qaldırmaqda əsas vasitədir [10,12].

V. Dorić tərəfindən təqdim olunan ali təhsil müəssisələrində İngilis dilini öyrənmənin kommunikativ modeli tələbələrə real həyat vəziyyətlərində dil bacarıqlarını tətbiq etmək imkanı yaradır. Bu model aydın təlim məqsədlərini və mədəni aspektlərin kommunikativ modelə daxil edilməsini ehtiva edir. O, həmçinin bu modeldə layihə işi, məşqlər, qrup işi, dialoqlar, təqdimatlar, fərdi iş və əks etdirmə kimi müxtəlif öyrənmə üsullarının da daxil edilməsini zəruri hesab edir. Beləliklə, məşq və idman fəaliyyətinin real həyat aspektlərindəki təcrübəyə diqqət yetirilməsi gələcək idman mütəxəssislərinin yetişdirilməsi, bədən tərbiyəsi və idman sahəsində tələbələrin İngilis dilində ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi üçün müxtəlif təlim üslublarını və müasir texnologiyaların tətbiqinə imkan yaradır. [3, 55]

Qeyd etməliyik ki, tədris prosesində tələbələrə materialı distant öyrənməyə, interaktiv testlərdən keçməyə, maraqlı tematik proqramların köməyi ilə bilikləri təkmilləşdirməyə imkan verən Quizlet, LearningApps, Moodle, Socrative platformalarından da istifadəyə diqqət yetirmək öyrənmə prosesini əlçatan və effektiv edə bilər. Müəllim və tələbə üçün bu növ resurslar yeni öyrənmə metodlarının həyata keçirilməsi və pedaqoji bacarıqların təkmilləşdirilməsi üçün geniş seçimlər təklif edir. Xüsusilə də yeni lüğətin mənimsənilməsi üçün praktik tapşırıqların hazırlanması, yoxlayıcı testlərinin işlənib tərtib və tətbiq edilməsi, qrupun nailiyyətlərini izləmək üçün innovative alətlərdir.

Moodle, Socrative distant təhsil platformalarından istifadə aşağıda qeyd edilənlərin tətbiqini mühüm hesab edir:

- fənnin elmi-metodiki təminatına malik olmaq;
- tələbələrin tapşırıqları yerinə yetirmələri üçün son tarixlər təyin etmək;
- tədris prosesində mətn, audio və ya video materiallardan istifadə etmək;
- tələbələrin sistemli qiymətləndirilməsi; müxtəlif testlərdən, sorğulardan və digər naza-

rət vasitələrindən istifadə etmək [2].

Sonda qeyd etməliyik ki, bədən tərbiyəsi və idman sahəsində təhsil alan tələbələrə xarici dilin peşəkar yönümlü tədrisi beynəlxalq fəaliyyətdə tam ünsiyyət üçün zəruri olan bir sıra peşəkar səriştələrin mənimsənilməsinə yönəldilməlidir. Bununla belə, bu, şifahi ünsiyyətin kommunikativ bacarıqlarının formalaşdırılması prioritet tədqiqat sahəsinə çevrilməlidir.

## ƏDƏBİYYAT


1. **Case A.** *Olympics Ideas Part One: Teaching English for and through Sport.* 2012, Retrieved from https://www.usingenglish.com/articles/olympics-ideas-part-one teaching-english-for-through-sport.html.
2. **Malenko O.** *The peculiarities of English language teaching to students sportsmen*, 2019, pp.38-40.
3. **Dorić V.** *The model of English language learning of the sports students*. 2020, pp.103–108. Retrieved from https://www.researchgate.net/publication/348976384_The_model_of_English_language_learning_of_the_sport_students Section xxiv. philology and journalism.
4. **Nastas N.** *The Importance of Studying Foreign Languages Texts for Athletes Specialized in Fitness*. Moldavian Journal for Education and Social Psychology, 1(1), 34-39. DOI:https://doi.org/10.18662/mjesp/2017.0101.04.
5. **Komochkina E.A.** *Foreign language teaching at the non-linguistic institute : history and the present*. 2014, vol 7, pp. 30-37.
6. **Masalkova E.** *Some unsolved problems of foreign language teaching to students sportsmen*, Retrieved from http://aprobacia.ru/nekotoryie-nereshennyi-problemyi-obucheniya inostrannomu-yaziku-studentov-sportsmenov.html.
7. **Melnikova E.J.** *Professionally-oriented foreign language teaching to students sportsmen*. Retrieved from https://spppc.com.ua/index.php/journal/article/view/136
8. **Yurko N.A., Styfanyshyn I.M., & Romanchuk, O.V.** *English and Physical Education: The Mutually Beneficial Integration*. International Journal of Education and Science (IJES), 2019, 2(2), 39.
9. **Yurko N., Kalymon Yu., Vorobel M.** *Professional English: the main features Priorities in the development of science and education:* Abstracts of XX International Scientific and Practical Conference. Budapest, Hungary: International Science Group. pp. 106–109. DOI https://doi.org/10.46299/ISG.2021.I.XX Google Scholar, CrossRef, OUCI) https://isg konf.com/wp-content/uploads/2021/04/XX-Conference-April-13-162021-book.pdf
10. **Yurko N., Romanchuk O., Protsenko U., Kalymon Y., Vorobel M.** *English speaking: the resources for dealing. Theoretical and scientific foundations of pedagogy and collective monograph*. International Science Group. Boston: Primedia eLaunch, P.209-216.

# ОСОБЕННОСТИ ИЗУЧЕНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА ДЛЯ СТУДЕНТОВ-СПОРТСМЕНОВ

**С.А. Гулиева**

*Академия Спорта Азербайджана*
samaya.guliyeva@sport.edu.az, orcid.org/0000-0002-2942-0944

**Аннотация.** В статье подчеркивается необходимость изучения английского языка студентами-спортсменами, важность его применения и освещены особенности оптимизации методики преподавания английского языка с использованием коммуникативных методов, информационно-коммуникативных технологий и т.д. В статье также на реальных примерах представлена необходимость формирования коммуникативной и межкультурной компетентности, которая позволит будущим спортсменам использовать иностранный язык в профессиональной и социальной сферах с учетом параметров, необходимых для свободного общения в условиях международной спортивной профессиональной деятельности.

**Ключевые слова:** *навыки коммуникации, межкультурная коммуникативная компетентность, профессионалы спорта, интерактивные задачи, профессионально ориентированное обучение.*

# FEATURES OF LEARNING ENGLISH FOR SPORTS STUDENTS

**S.A. Guliyeva**

*Azerbaijan Sports Academy*
samaya.guliyeva@sport.edu.az, orcid.org/0000-0002-2942-0944

**Annotation.** The article highlights the necessity of learning English for sports students, the importance of its application and is dedicated to the features of the optimization of the English language teaching methodology using communication methods, information and communication technologies, etc. The article also presents with real examples the need for the formation of communicative and intercultural competence that will allow future athletes to use a foreign language in professional and social fields, taking into account the parameters necessary for free communication in the conditions of international sports professional activity.

**Keywords:** *communication skills, intercultural communicative competence, sports professionals, interactive tasks, professionally oriented teaching.*